# THE MAIN PRIORITIES FOR IMPROVING THE QUALITY OF EDUCATION IN SECONDARY SCHOOLS

**Kamal Jamalov**
Nakhchivan Teachers' Institute,
Doctor of pedagogical sciences
Email: kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-7250

**Abstract.** The article focuses on the theoretical and practical problems of teaching and learning paradigms in secondary schools. It is noted that one of the essential conditions for a teacher to establish a sincere human relationship with students is to become a person who is needed by our people, our homeland. It also has a positive effect on their formation as adults. The torch created by the teacher illuminates the life of every student who takes his first fragile steps to school. The upbringing of students, their upbringing as an individual, as a citizen, as a perfect person is the duty and honor of every teacher. Along with the professional qualities of the teacher, the personal example of the teacher has a great influence on the suitable regulation of the teacher-student relationship. The article also attitudes on the main conditions of the school regime and shortcomings in the teacher-student relationship.
**Keywords:** secondary schools, inborn talent, the golden rule, creative ability, cognition, psychiatric diagnosis, psychological prevention.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.28
**To cite this article:** Jamalov K. (2022). The main priorities for improving the quality of education in secondary schools. *Journal of Preschool and Primary Education*, Vol. 238, Issue I, pp. 9-17.
**Article history:** received – 19.01.2022; accepted – 25.12.2022.

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ TƏDRİSİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNİN ƏSAS PRİORİTETLƏRİ

**Kamal Camalov**
Naxçıvan Müəllimlər İnstitutu,
Pedaqogika üzrə elmlər doktoru
E-mail: kamal.camalov@gmail.com
https://orcid.org/0000-0003-1977-725

**Annotasiya.** Məqalədə ümumtəhsil məktəblərində təlim-təhsil paradiqmalarının nəzəri və praktik problemləri tədqiq-təhlil obyektinə çevrilmişdir. Qeyd olunur ki, şagirdlərin xalqımıza, vətənimizə gərəkli insana çevrilməsində müəllimin şagirdlərlə səmimi insani münasibət qurması vacib şərtlərdəndir. Bu, onların yetkin şəxsiyyət kimi formalaşmasına da öz müsbət təsirini göstərir. Məktəbə ilk kövrək qədəmlərini qoyan hər bir şagirdin həyat yolunu müəllimin yaratdığı məşəl işıqlandırır. Şagirdlərin bir şəxsiyyət kimi, vətəndaş kimi, kamil insan kimi formalaşdırılması hər bir müəllimin borcu, şərəf işidir. Müəllim-şagird münasibətlərinin düzgün tənzimlənməsində müəllimin peşəkarlıq xüsusiyyətləri ilə bərabər, şəxsi nümunəsinin də təsiri böyükdür. Məqalədə, həmçinin məktəb rejimindəki əsas şərtlərə və müəllim-şagird münasibətlərindəki çatışmazlıqlara da münasibət bildirilmişdir.

**Açar sözlər:** ümumtəhsil məktəbləri, fitri istedad, qızıl qayda, yaradıcılıq qabiliyyəti, təfəkkür, psixodiaqnosika, psixoprofilaktika.

**DOI:** http://dx.doi.org/10.29228/imcra.28
**Məqaləyə istinad:** Camalov K. (2022). Ümumtəhsil məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsinin əsas prioritetləri. «*Məktəbəqədər və ibtidai təhsil*», № 1 (238), səh. 9-17.
**Məqalə tarixçəsi:** göndərilib – 19.01.2022; qəbul edilib – 25.02.2022.

## Giriş / Introduction

Bu gün Azərbaycanda həyata keçirilən təhsil siyasəti elm sahəsində yüksək nailiyyətlərə stimul verərək, məsul bir tarixi dövrü yaşamaqdadır. Azərbaycan Respublikasının Konstitusiyası və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri baxımından təhsil islahatını əhatə edən 20-yə qədər iri miqyaslı layihələrin uğurla həyata keçirilməsi, xüsusilə Təhsil Sektorunun İnkişafı üzrə birinci (2003–2008), ikinci (2009–2013) və üçüncü (2014–2018) dövrlərdə uğurlu tətbiqi bu sahənin beynəlxalq miqyasda irəliləyişlərini təmin etməkdədir. "Təhsil islahatına dair sənədlərdə bu sahədə fəaliyyət göstərən müəllimlərin qarşısında mühüm vəzifələr qoyulur" [Həsənli O., 2017].

## Əsas hissə / Main part

Təhsilin inkişaf etdirilməsi, ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təchiz olunması proqramının hazırlanıb həyata keçirilməsi, sağlamlıq imkanları məhdud olan uşaqlar üçün rayonlar üzrə məktəblərin, internat məktəblərinin, texniki-peşə məktəblərinin yaradılması, bu müəssisələrin ixtisaslı pedaqoji kadrlarla təminatı üçün məqsədli yenidənhazırlanma kurslarının təşkili, orta ümumtəhsil məktəblərinin şagirdləri arasında olimpiadaların, viktorinaların, müxtəlif mövzularda dəyirmi masaların və konfransların keçirilməsi gənc nəslə yaxşı təhsil verməyin əyani sübutudur.

Bildiyimiz kimi, təhsilin keyfiyyətinə bilavasitə təsir edən mühüm amillərdən biri də orta ümumtəhsil məktəblərində maddi-texniki bazanın gücləndirilməsidir. Naxçıvan Muxtar Respublikasının təhsil sistemində iri miqyaslı islahatlar prosesi artıq geriyə dönməz xarakter almışdır. Qeyd etdiyimiz kimi, milli təhsil sisteminin gələcəyini təmin edəcək inkişaf proqramları təsdiq olunaraq reallaşdırılmağa başlanmış, təhsilin davamlı inkişafına yönəlmiş əsaslı addımlar atılmışdır.

Bütün bunlarla yanaşı, təəssüf hissi ilə bildirməliyik ki, ümumtəhsil məktəblərində müasir tələblərə cavab verməyən və həlli vacib olan bir çox problemlər də mövcuddur. Belə ki, məktəbdə şagirdlərlə məsləhətləşmələr, psixodiaqnostika, psixoprofilaktika və psixokorreksiya işləri aparılarkən çalışmaq lazımdır ki, bu işlər yüksək səviyyədə qurulsun. Bu mənada, "tərbiyə işi sisteminin səmərəliliyinin öyrənilməsinin meyarları əvvəlcədən müəyyənləşdirilməlidir" [Əliyev P., Əhmədov H., 2004]. Bu məqsədlə siniflərdə tərbiyə saatları keçirilməlidir. Problemləri anketlər yolu ilə araşdırarkən belə bir nəticəyə gəlmək olar ki, fənn müəllimlərinin pedaqoji-psixoloji aspektdən bəzən şagirdlərə düzgün yanaşmamaları onların digər fənlərə də həvəsini söndürə bilər.

Uşaqlar tələbkar müəllimi sevirlər, lakin müəllim də yalnız uşaqlara qarşı deyil, eyni zamanda, özünə qarşı da tələbkar olmalıdır. Uşaqlara qarşı olan tələbkarlıq hədə-qorxuya yox, doğruluğa, düzlüyə, sözübütövlüyə, nüfuza əsaslanmalıdır. Azərbaycan xalq pedaqogikasında belə deyilir: "Doğruçuluq sözdə düzlükdür, düzlük isə işdə doğruçuluqdur" [Həşimov Ə., Sadıqov F., 1993].

Şagirdə olan münasibətdə, psixi və fərdi xüsusiyyətlər nəzərə alınmaqla, harmoniya gözlənilməlidir. "Təcrübə göstərir ki, uşaqların fərdi xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi tərbiyəçinin, müəllimin əlində kompas rolunu oynayır" [Abdullayev S., Abbasova S., 2010].

Fərdi söhbəti tənəffüs zamanı səsli-küylü dəhlizdə, pəncərə qarşısında və çoxsaylı müəllimlərin iştirakı ilə müəllimlər otağında apardıqda onun heç bir nəticəsi olmaz. "Hər bir şagirdin fərdi xüsusiyyətlərini bilmək və həmin xüsusiyyətləri nəzərə almaq tərbiyə prosesində müvəffəqiyyətin rəhnidir" [Abdullayeva Ş., 2004].

Hər iş öz ustasının əlində asan olduğu kimi, təlimin düzgün təşkili də qoyulmuş məqsədə çatmağa daha tez zəmin yaradar. "Problemin düzgün qoyulması onun müvəffəqiyyətlə həll edilməsinin mühüm şərtidir" [Abdullayev S., Abbasova S., 2010]. Bildiyimiz kimi, sağlam düşüncə məqsədi dəqiq müəyyənləşdirir. "İnsan fikri o zaman meydana gəlir ki, onun hər hansı bir şeyi dərk etməyə ehtiyacı, tələbatı olur" [Ümumi psixologiya, 1982].

Yaxşı təşkil edilmiş təlim uşağın inkişafında mühüm rol oynayır. "Psixoloqlar təlim materialının anlaşılmasının aşağıdakı səviyyələrini qeyd edirlər: təsviri, müqayisəli, izahlı, ümumiləşdirilmiş, qiymətləndirici, problemli (tədqiqi) [Həmzəyev M.,1991]. Bu baxımdan, müşahidələrə, dərs dinləmələrinə əsaslanaraq, təlimdə geridə qalmaların səbəblərindən bir neçəsinin təhlilini vermək istərdik.

**Birinci səbəb** diqqətin zəifliyi və ya dalğınlığıdır. Bu zaman şagird öz diqqətini müəyyən bir obyekt və ya problem üzərində cəmləşdirə, mərkəzləşdirə bilmir. O, diqqətini axıra qədər cəmləşdirə bilməyib, dərsdə kənar işlərlə məşğul olur, tədricən özünə inamını itirir, dərsdən soyuyur, çalışmır, tənbəlləşir.

**İkinci səbəb** – şagirdin dərs prosesində mövzunu anlamamasıdır. Müəllim öz şagirdlərinə izah etməlidir ki, aydın olmayan, çətin anlaşılan məsələlərin üstündən keçməsinlər, onları tamamilə anlayıb öyrənmək vacibdir. Şagird öyrəndiyini anlamalıdır.

**Üçüncü səbəb** – şagirdlərin ev tapşırıqları ilə həddindən artıq yüklənməsidir. Müəllimlər, xüsusən dil (Azərbaycan dili, ingilis dili və s.) və riyaziyyat müəllimləri keçilən mövzu ilə əlaqədar olaraq, müəyyən günlərdə şagirdlərə daha çox tapşırıq verməyə ehtiyac hiss edirlər. Bu zaman onlar sinif rəhbəri vasitəsi ilə digər müəllimlərin həmin gün öz fənlərindən ev tapşırıqlarını az vermələrini təmin etməlidirlər. Məsələn, riyaziyyatdan ev tapşırığı çox veriləcəksə, həmin gün

dərs cədvəlindəki digər fənlərdən ev tapşırıqlarını qismən azaltmaq mümkündür. Gələn dəfə isə əksinə ola bilər. Bütün bunlar eyni sinifdə dərs deyən müəllimlərin əməkdaşlıq şəraitində işləmələrini tələb edir.

**Dördüncü səbəb** evdə vaxtın düzgün bölüşdürülməməsidir ki, bu da vaxt çatışmazlığına səbəb olur. Eyni zamanda, müstəqil iş bacarıqlarına yaxşı yiyələnməyən şagirdlər də həmişə təlimdə çətinliklərlə qarşılaşırlar. Belə şagirdlərə ibtidai siniflərdə daha çox rast gəlmək olur. Deməli, ibtidai sinif müəllimi 1-ci sinifdən etibarən şagirdləri çox yükləməyə yox, onların həvəs motivlərini gücləndirməyə xüsusi səy göstərməli və onları müstəqilliyə alışdırmalıdır. Bununla bağlı görkəmli pedaqoq Yan Amos Komenski yazırdı: “Bağban əkdiyi bitkilərin elə birinci ayda yetişməsinə və ya birinci ildə bar verməsinə heç də çalışmır. Buna görə də o, heç də hər gün onunla məşğul olmur, onu heç də hər gün sulamır, onun yanında od yandıraraq və ya dibinə sönməmiş əhəng tökərək, heç də havanın qızmasını tezləşdirmir, əksinə, bitkinin göydən yağan yağışla sulanması və günəşin istisi sayəsində qızması ilə qənaətlənir. ...Beləliklə, şagirdlər üçün məşğələləri asan və xoşagələn məşğələlərə çevirə bilən şəxslər (müəllimlər – K.C.):

–şagirdləri mümkün qədər az saatlarda sinif məşğələlərinə cəlb etsinlər;

–şagirdlərin hafizəsini mümkün qədər az yükləsin və ona yalnız ən əsas cəhətləri öyrətsinlər; qalan hissələri isə müstəqil öyrənmək üçün təqdim etsinlər;

– hər mövzunu şagirdlərin qavrama qabiliyyəti dərəcəsinə müvafiq tədris etsinlər...” [Komenski Y.A., 2012].

Müstəqillik həm də şagirdlərdə təşəbbüskarlığı və özünəinamı artırır.

Görkəmli pedaqoq K.D.Uşinski məktəb rəhbərlərinə xitabən yazırdı: Ümumtəhsil məktəblərində dərs cədvəlləri düzgün və həssaslıqla tərtib olunmalıdır. Dərs cədvəli düzgün qurulmadıqda “beyinin fəaliyyəti müntəzəm surətdə gərginlikdə saxlanılmaqla, uşağa hətta fiziki cəhətdən də zərər vurursunuz” [Uşinski K.D., 1953]. Bu da şagirdlərin təlimdə geridə qalmalarına səbəb ola bilər.

Hər bir məktəbdə dərs cədvəlinin tərtibində əsas pedaqoji-psixoloji tələblərin yerinə yetirilməsinə, aşağıdakı tələblər nəzərə alınmaqla əməl olunmalıdır:

–şagirdlərin əqli gərginliyini və çoxsaylı ev tapşırıqlarının yerinə yetirilməsini tələb edən dərslərin həftənin günləri üzrə bərabər bölüşdürülməsi;

–dərs cədvəlinin şagirdlərin təfəkkür səviyyəsinə uyğun tərtib olunması;

–qoşa saatlı dərslərin sayının məhdudlaşdırılması istiqamətində ciddi nəzarət olunması.

Dərs günü və həftə ərzində dərs yükünün cədvəldə düzgün yerləşdirilməsi məktəb rejiminin əsas şərtlərindən biridir. Dərs cədvəli bütün siniflərdə şagirdlərin yaşı, ayın, ilin, həftənin, günün bioritmik xüsusiyyətləri, beyinin qavrayış tərzi nəzərə alınmaqla tərtib edilməlidir. Belə ki, 1-ci dərsin əvvəlində iş qabiliy-

yətinin yaranması, sonra elə həmin dərsdəcə qabiliyyətin möhkəmlənmə fazası başlayır ki, bu da ikinci dərsin sonuna qədər davam edir. 3-cü dərsdə iş bacarığının səviyyəsi aşağı düşür, 4-cü dərsdə isə artıq yorğunluq əmələ gəlir. Ona görə də cədvəldə 1-ci saatda bədən tərbiyəsi dərsi, yorğunluğun sürətlə artdığı axırıncı dərs saatlarında isə həyat bilgisi, riyaziyyat, dil dərsləri salmaq olmaz. Odur ki, zehni yorğunluğun artmasına səbəb olan dərslərin çətinliyi az olan dərslərlə düzgün növbələşdirilməsinə diqqət yetirilməlidir. Cədvəl tərtib olunarkən həm çətin, həm də yorğunluq yaradan dərsləri nəzərə almaq lazımdır. Müəllimlər bilməlidirlər ki, şagirdlərdə ən yüksək iş qabiliyyəti çərşənbə axşamı və çərşənbə günlərində müşahidə edilir və ona görə də həmin günlərdə yoxlama işləri aparmaq və çətin tapşırıqları yerinə yetirmək məsləhətdir, cümə axşamı isə nisbətən asan məşğələlərin keçirilməsi yaxşı olar. Beləliklə, biz həftə ərzində uşaqların iş qabiliyyətini qoruyub saxlaya bilərik.

Tədris ilində yüksək iş qabiliyyətinin müşahidə olunduğu dövr oktyabr, noyabr və dekabr aylarıdır. Şagirdlərin iş qabiliyyəti ancaq may ayında aşağı enir. Həftə ərzində:

– iş qabiliyyətinin əsasının qoyulması günü – bazar ertəsi;

– ən yüksək iş qabiliyyəti olan günlər – çərşənbə axşamı və çərşənbə;

– iş qabiliyyətinin aşağı endiyi günlər – cümə axşamı, cümə;

– aşağı iş bacarığı olan günlər – şənbə günündə müşahidə olunur.

Təlim prosesində "öyrənənin (şagirdin – K.C.) fitri istedadı, yaradıcılıq qabiliyyəti nəzərə alınmalıdır" [Axundova İ., 2000].

Onu da etiraf etməliyik ki, bu gün, təəssüf ki, bəzi müəllimlərdə şagirdlərə fərdi yanaşma qabiliyyətində nöqsanlar hələ də öz əksini tapmaqdadır. Bu da, psixoloji terminlə desək, psixodiaqnostik ustalığın çatışmaması deməkdir. Bu baxımdan, müəllim

● şagirdə görüləcək işin məqsədini, hansı istiqamətdə qurulmasını, icrasını izah edərsə;

● işin təşkili vasitələrini, qaydalarını göstərərsə;

● görüləcək işi uşaqlara şifahi və ya əyani şəkildə təsvir edərsə, onun bütün elementləri şagird nitqində öz əksini taparsa;

● işin icrasında fərdi iş üslubunu müəyyən edərsə, onun üçün inkişafedirici təsir vasitələri seçərsə;

● uşağın seçilmiş işə münasibətini müəyyənləşdirərsə, o zaman, Y.A. Komenskinin sözləri ilə ifadə etsək, bu, "qızıl qayda"olar.

Bütün bunlarla yanaşı, təcrübəyə əsaslanaraq onu da deyə bilərik ki, mənəvi dəyərlərimizi əks etdirən tarixi yerlərə, təbiət qoynuna təşkil olunmuş ekskursiyalar, digər bölgələrə səyahət nəinki şagirdləri peşəyönümünə istiqamətləndirir, hətta onların pedaqoji-psixi proseslərini, habelə daxili "mən"inin kamilliyini,

dünyagörüşünü, həyata münasibətini öyrənməyə və formalaşdırmağa, streslərdən uzaqlaşmalarına da zəmin yaradır. Artıq "mən" obrazı "rəftarda və davranışda, ünsiyyət və fəaliyyətdə təzahür edərək xeyirxahlıq, dostluq, həssaslıq, kollektivçilik, borc, məsuliyyət, səmimilik, sədaqətlilik hisslərini möhkəmləndirir" [Əmrahlı L., Rzayeva N., 2015]. Belə olduqda "şagirdlər onlara verilən tapşırıqları həll etmək üçün dərindən düşünməli olur, qazandıqları bütün bilik cəbbəxanasından istifadə edir, rabitəni təcili olaraq bərpa etmək üçün müstəqil nəticə çıxarırlar" [Mehdizadə M., 1971].

Göründüyü kimi, müəllimin fəaliyyəti çoxsahəlidir və bu fəaliyyətin yüksək nəticə verməsi üçün məktəb rəhbəri pedaqoji heyətə münasib iş şəraiti yaratmalıdır. Bununla belə, çalışmalıyıq ki, əldə olan metodik vəsait və paylayıcı materiallardan istifadə edərək, müəllim və şagird kollektivinin sorğularına cavab verək.

Ümumtəhsil məktəblərində işləyən hər bir müəllim təhsil alan hər bir şagirdi, ilk növbədə, şəxsiyyət kimi formalaşdırmalı, "şagirdlərin düzgün dünyagörüşünə yiyələnməsində" [Əliyeva G., 2010] yol göstərməli, onun təlim-tərbiyə prosesini əsas subyektə çevirməyi başlıca vəzifə hesab etməlidir. V.A. Suxomlinskinin qeyd etdiyi kimi, "Tərbiyə edən və öyrədən proqram, dərslik, metod deyil, müəllimin şəxsiyyətidir".

## Nəticə / Conclusion

Sonda gəldiyimiz nəticələr belədir:

- Məktəbə kövrək qədəmlərini qoyan hər bir şagirdin həyat yolunu müəllimin yandırdığı elm məşəli işıqlandırmalıdır.
- Məktəb kollektivinin hər bir üzvü, birinci növbədə, şagirdlərə milli-mənəvi dəyərlərə hörmət hissi aşılamalıdır.
- Məktəbdə tədrisin keyfiyyətinin yüksəldilməsi məktəb rəhbərliyinin, müəllimlərin vəzifəsi olmalıdır.
- Müəllimlər şagirdlərdə ana dilimizə, qədim tariximizə söykənən ədəbiyyatımıza, islam mədəniyyətinə və müasirliyə məhəbbət hissi aşılamalıdırlar.
- Müəllimlər tədrisin keyfiyyətinin yüksəldilməsini əsas prioritetə çevirməlidirlər.
- Fənn müəllimləri pedaqoji-psixoloji aspektdən şagirdlərə düzgün yanaşmalı və onlarda öz fənlərinə həvəs motivi yaratmalıdırlar.
- Müəllimlər tədris edəcəkləri hər bir mövzunun səmərəliliyini, tədrisin keyfiyyətini yüksəltmək üçün idrak motivlərinin rolunu əvvəlcədən müəyyənləşdirməlidirlər.
- Diqqət ruhumuzun yeganə qapısı olduğu üçün məktəb müəllimləri öz diqqətini müəyyən bir obyekt üzərində cəmləşdirə, mərkəzləşdirə bilməyən şa-

girdlər üçün müxtəlif üsul və metodlardan istifadə etməlidirlər.

● Müəllimlər bilik verməklə yanaşı, uşaqlarda şəxsiyyətin bütövlüyü, doğruçuluq, düzlük, sözübütövlük, ədalətlilik, prinsipiallıq tərbiyə etməlidirlər.

**Problemin aktuallığı.** Məqalədə məktəblərdə təlim-tərbiyənin səmərəlilik keyfiyyətinin yüksəldilməsi və təkmilləşdirilməsi prosesinin qanunauyğunluqları diqqət mərkəzinə gətirilmişdir.

**Problemin elmi yeniliyi.** Məqalədə təlim motivləri və müəllimin peşəkarlığı baxımından biri-birini şərtləndirməsinin, müəllim-şagird münasibətlərində psixi və fərdi xüsusiyyətlərin nəzərə alınmasının izlənilməsi, hər bir şagirdin şəxsiyyət kimi formalaşdırılmasının yolları müəyyənləşdirilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə öz əksini tapmış başlıca ideyalar müəllim və şagird kollektivlərinin psixoloji iqliminə, təlimin keyfiyyətinin yüksəldilməsinə təsirin göstərəcəkdir.

## İstifadə olunmuş ədəbiyyat / References


1. Abbasov A. (2010). Pedaqogika. (orta ixtisas məktəbləri üçün dərs vəsaiti). Bakı, "Mütərcim", 360 s.
2. Abdullayev S., Abbasova S. (2010). Müasir informasiya texnologiyaları təhsildə. Bakı, "Azərbaycan məktəbi", № 6, s.34-40.
3. Abdullayeva S. (2004). Uşaqların qabiliyyətlərinin inkişaf etdirilməsində məktəbəqədər tərbiyənin rolu. Bakı, "İbtidai məktəb və məktəbəqədər tərbiyə", №2, s.37-39.
4. Axundova İ. (2000). Tədris prosesində tədrisin yüksəldilməsi yolları. Bakı,"Pedaqoji universitetin xəbərləri", №1-2, s.125-132.
5. Əliyev P., Əhmədov H. (2004). Təhsil müəssisələrində tərbiyə işinin təşkili. Bakı, "Təhsil", 220 s.
6. Əliyeva G. (2010). Şəxsiyyətin formalaşmasının psixoloji problemləri. Bakı, "Elm və təhsil", 424 s.
7. Əmrahlı L., Rzayeva N. (2015). Uşaq psixologiyası (dərs vəsaiti). Bakı, "Nurlan", 344 s.
8. Həmzəyev M. (1991). Pedaqoji psixologiya. Bakı, "Maarif" , 221 s.
9. Həsənli O. (2017). Təhsilin müasir psixoloji problemləri. Naxçıvan, "Əcəmi", 416 s.
10. Həşimov Ə., Sadıqov F. (1993). Azərbaycan xalq pedaqogikası. Bakı, "Qızıl şərq", 275 s.

11. Komenski Y.A. (2012). Böyük didaktika. Bakı, "Elm və təhsil", 388 s.
12. Mehdizadə M. (1971). Müasir dərsə verilən tələblər haqqında. Bakı, "Maarif", 105 s.
13. Uşinski K.D. (1953). Seçilmiş pedaqoji əsərləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 314 s.
14. Ümumi psixologiya. (1982). Bakı, "Maarif", 496 s.